Kitabxanası


# ELM

*Qüvvət elmdədir,*
*başqa cür heç kəs*
*Heç kəsə üstünlük*
*eyləyə bilməz.*
*Nizami Gəncəvi*

*Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qəzeti*

Ayda iki dəfə nəşr olunur

# НАУКА

№ 15 (1157) • Cümə, 12 avqust 2016-cı il • Qəzet 1984-cü ildən çıxır • Qiyməti 50 qəpik




# RESPUBLİKA PREZİDENTİ "ELM HAQQINDA" QANUNU TƏSDİQ EDİB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Elm haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Fərman imzalayıb.**

**Fərmana əsasən, Nazirlər Kabinetinə beş ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Elm haqqında" Qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.**

**Həmçinin Nazirlər Kabinetinə tapşırılıb ki, həmin Qanunun 12.6-cı maddəsinə uyğun olaraq, ali təhsil müəssisələrinə "Tədqiqat universiteti" statusu verilməsi üçün tələbləri müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.**

**Ədliyyə Nazirliyinə tapşırılıb ki, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.**

***Prezident İlham Əliyevin "Elm haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə imzaladığı Fərmanın Azərbaycan elminin inkişafında yeri və rolunun qiymətləndirilməsi, o cümlədən sənəddə ölkə elminin inkişaf perspektivlərinə dair yer alan əsas müddəalara dair AMEA İdarəetmə Sistemləri İnstitutunun laboratoriya müdiri, akademik Asəf Hacıyev, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev, AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli və AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinin rəisi, texnika üzrə elmlər doktoru Əminağa Sadıqovun fikirlərini öyrəndik.***

**Asəf Hacıyev:** "Elm haqqında" Qanunun uzun zamandır ki, müzakirə mərhələsində olmasının obyektiv səbəbi var idi. Belə ki, müasir elm sürətlə inkişaf etdiyindən qəbul olunan hər bir yeni qanun bu inkişafın əsas istiqamətlərini özündə əks etdirməlidir. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi və ölkə Prezidenti İlham Əliyevin imzaladığı "Elm haqqında" Qanunun hazırlanması prosesi uzun çəksə də, sonda mükəmməl nəticə əldə olundu. Mən bu böyük nailiyyət münasibətilə AMEA, o cümlədən bütövlükdə Azərbaycan elmi ictimaiyyətini ürəkdən təbrik edirəm.

Qəbul olunan bu qanun Azərbaycan elmi və alimləri qarşısında ciddi vəzifələr qoyur. Beynəlxalq elm aləminə inteqrasiya etmək, elmi innovasiyaları inkişaf etdirib onlardan faydalanmaq qanunda da öz əksini tapan mühüm məsələlərdir.

Qanun alim və mütəxəssislərə, ictimai birliklərə elm fondları və digər elmi qurumlar yaratmaq imkanı verir ki, bu da deklarasiyanın əsas prinsiplərinə uyğundur. Həmçinin yüksəkixtisaslı elmi kadrların hazırlanması və bu məsələlərə dövlət tərəfindən vəsaitin ayrılması xüsusi qeyd olunur. Bu da, dövlətin elm sahəsinə göstərdiyi xüsusi diqqətin nəticəsidir. Qanunda elm, təhsil və iqtisadiyyatın inteqrasiyasına, eyni zamanda elmi fəaliyyətin iqtisadiyyatına da xüsusi yer ayrılıb.

Müasir dövrdə ən önəmli məsələlərdən biri də elm və onun nəticələrinə olan inamdır. Qanunda xüsusi maddə ilə elmi fəaliyyətin nəticələrindən istifadə yolları göstərilir.

Bu gün Azərbaycanda əqli mülkiyyət və mədəni dəyərlərin oğurlanması problemi olduqca aktualdır. Əqli mülkiyyət hüququnun qorunmasına da qanunda ayrıca yer verilmişdir.

Əminliklə demək olar ki, AMEA və bütövlükdə Azərbaycan elmi qarşısında mühüm vəzifələr qoyan bu qanun daha yüksək elmi nəticələrin əldə edilməsinə geniş imkanlar yaradır.

**Elçin Babayev:** Azərbaycanda elmin inkişafı daim dövlətin diqqət mərkəzindədir. Elmin inkişafı ölkənin sosial-iqtisadi və mədəni inkişafı ilə sıx əlaqədədir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş elm və təhsil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın yeni və mürəkkəb mərhələsində ölkənin intellektual gələcəyini təmin etməyin yolunu elm və təhsil sahələrinin inkişafında, onların müasir tələblər səviyyəsinə çatdırılmasında və həmin proseslərdə alimlərin böyük potensialından düzgün istifadədə görür.

Artıq qüvvəyə minən bu Qanun ən müxtəlif səviyyələrdə müzakirəyə çıxarılıb, alimlərin və ictimaiyyət nümayəndələrinin, AMEA-nın və digər məsul qurumların irad və təklifləri nəzərə alınıb. İlkin variantından fərqli olaraq, kifayət qədər təkmilləşdirilərək mükəmməl bir sənədə çevrilib. Bu işdə Milli Məclisin Elm və Təhsil Komitəsinin, onun sədri akademik İsa Həbibbəylinin səyləri xüsusi olaraq qeyd edilməlidir.

"Elm haqqında" Qanun imkan verəcək ki, alimlərimiz Azərbaycan xalqının və ölkənin rifahına və tərəqqisinə, dövlətin möhkəmləndirilməsinə, elmin yüksək xətlə inkişaf strategiyasının həyata keçirilməsinə və onun təkmilləşdirilməsinə, elmi-tədqiqat proqramlarının və layihələrinin uğurla həyata keçirilməsinə və ölkədə elm sahəsində dünyamiqyaslı və rəqabət apara biləcək elmi nəticələrin alınmasının yüksək səviyyədə reallaşdırılmasına və bu nəticələrin xaricdə də tanıdılmaqla, tezliklə iqtisadiyyatda, həyatda öz tətbiqini tapmasına yüksək səviyyədə xidmət etsinlər. Elmin İnkişafı Fondu da öz növbəsində bu şərəfli və məsuliyyətli vəzifələrin yerinə yetirilməsində alimlərə daim dəstək olacaq.

*(Davamı 2-ci səhifədə)*

# RESPUBLİKA PREZİDENTİ "ELM HAQQINDA" QANUNU TƏSDİQ EDİB

*(Əvvəli 1-ci səhifədə)*

**Qurban Yetirmişli:** AR Prezidenti cənab İlham Əliyevin "Elm haqqında" Qanunu təsdiq etməsi elm ictimaiyyəti və alimlər tərəfindən xoş hadisə kimi qarşılandı. Çünki bu günədək Azərbaycanda elmi fəaliyyətin tənzimlənməsini və həyata keçirilməsini təmin edən qanunvericilik bazası mövcud deyildi. Yeni Qanunda elmi sahənin inkişaf etdirilməsi, eləcə də elmi fəaliyyətlə bağlı bir sıra mühüm məsələlər öz əksini tapıb.

Qanuna əsasən, alimlər müəllifi olduqları ixtiralara görə istehsal müəssisələrindən gəlir əldə edə, eyni zamanda peşələrinə uyğun sahibkarlıq fəaliyyəti ilə məşğul ola biləcəklər. Bu isə elm adamlarına praktiki olaraq məşğul olduqları sahələr üzrə həm fəaliyyətlərini genişləndirməyə, həm də daha böyük elmi-tədqiqatların aparılmasını stimullaşdırmağa imkan verəcək. Hesab edirəm ki, yeni qanunun qəbulu gənc alim və mütəxəssislərin elmə maraqlarının artmasına və Azərbaycan elminin daha yüksək səviyyəyə qalxmasına öz töhfəsini verəcək.

**Əminağa Sadıqov:** "Elm haqqında" Qanun Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir. Sənəddə elmi fəaliyyətin subyektləri, yüksəkixtisaslı elmi kadr hazırlığı sahəsində dövlət siyasəti, elmi fəaliyyət sahəsinin idarə edilməsi, elmi fəaliyyət sahəsində beynəlxalq əməkdaşlıq və s. haqqında ayrıca fəsillər var.

Qanunda elmi fəaliyyət sahəsində dövlətin vəzifələri xüsusi qeyd edilib. Onların arasında elmin inkişafı ilə bərabər, həm də alimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, elmi işçilərin sosial müdafiəsinin təmin edilməsi, elmi nailiyyətlərin stimullaşdırılması ilə bağlı mühüm müddəalar var. Vacib məqamlardan biri də odur ki, Qanuna əsasən, təhsilin fasiləsizliyini təmin etmək məqsədilə AR və xarici ölkələrin ali təhsil və elmi müəssisələrin magistratura və doktoranturalarında əyani təhsil alanlara hərbi xidmətdən möhlət hüququ verilir.

Bütövlükdə "Elm haqqında" Qanun ölkənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi, hər bir Azərbaycan Respublikası vətəndaşının rifahının və elmi səviyyəsinin yüksəldilməsi, yeni biliklərə yiyələnməsi və dünyanı dərk etmək kimi təbii və mənəvi ehtiyaclarının ödənilməsində elmin aparıcı rolunu və vəzifələrini müəyyənləşdirir.

***Hazırladı:***
***Nərgiz Qəhrəmanova***
***İctimaiyyətlə Əlaqələr və Elmin Populyarlaşdırılması idarəsinin Elektron İnformasiya şöbəsinin rəis müavini***